**Xəzər Akif MUSAYEV**
Azərbaycan Turizm və Menecment Universiteti, doktorant
E-mail: xazar.musali22@gmail.com
ORCID ID: 0009-0006-3818-5030

# TİKİNTİ SEKTORUNUN İNKİŞAFININ ƏHALİNİN RİFAHINA TƏSİRİ

**Xülasə**

Müasir dövrdə əhalinin yaşayış şəraitinin yaxşılaşdırılmasında tikinti sektorunun rolu əvəzolunmazdır. Tikinti sektoru yalnız iqtisadi artımın mühüm hərəkətverici qüvvəsi deyil, eyni zamanda əhalinin rifah səviyyəsinin yüksəldilməsində əsas amillərdən biridir. Bu məqalədə tikinti sektorunun rifaha təsiri müxtəlif aspektlərdən-iqtisadi, sosial və ekoloji baxımdan təhlil olunmuşdur. Məşğulluq səviyyəsinin artırılması, mənzil şəraitinin yaxşılaşdırılması, regional infrastrukturun inkişafı kimi sahələrdə tikinti sektorunun rolu araşdırılmışdır. Eyni zamanda, davamlı və ekoloji cəhətdən məsuliyyətli tikinti siyasətinin əhəmiyyəti qeyd edilmiş və təklif-tövsiyələri irəli sürülmüşdür.

**Açar sözləri:** tikinti sektoru, əhalinin rifahı, mənzil, məşğulluq,infrastruktur, davamlı inkişaf.

**UOT:** 69:330.59
**JEL:** L74, I31, O40, J21
**DOI:** https://doi.org/10.54414/NZEN1340

## Giriş

Son zamanlar Azərbaycan Respublikasında, xüsusən də Bakıda tikinti fəaliyyəti sürətlə genişlənib. Alıcılıq qabiliyyətinin artması tikinti sektoruna investisiyaların əhəmiyyətli dərəcədə artmasına səbəb olub. Hazırda ölkədəki çoxmərtəbəli yaşayış binalarının əksəriyyəti özəl sektor tərəfindən tikilir. Bu, mənzil təminatında və yeni infrastrukturun yaradılmasında mühüm rol oynasa da, bir sıra ciddi problemlər yaradır.Bəzi hallarda tikinti şirkətləri müəyyən edilmiş təhlükəsizlik tələblərinə və standartlarına əməl etmir və bu da tikinti sahələrində qəzalara, yanğınlara və işçi ölümləri ilə nəticələnən faciəli hadisələrə səbəb olur. Bundan əlavə, bu təşkilatlar tərəfindən əmək müqavilələrinin olmaması işçilərin əmək hüquqlarının pozulmasına və vergidən yayınmaya səbəb olur [10].

## Əsas hissə

Tikinti sektoru, iqtisadiyyatın mühüm sahələrindən biridir və əhalinin rifahına birbaşa və dolaylı təsir göstərir. Bu sektor yalnız iş imkanları yaratmaqla kifayətlənmir, həm də iqtisadiyyatda bir çox digər sahələrə təsir edir. Tikinti sektoru əhalinin rifahına müxtəlif yollarla təsir edir və bu təsirlər həm iqtisadi, həm də sosial baxımdan əhəmiyyətlidir.

Tikinti sektoru böyük miqdarda işçi qüvvəsi tələb edir. Bu sahə fəhlələrdən tutmuş mühəndislik, memarlıq və digər texniki xidmətlərə qədər bir çox müxtəlif sahələrdə iş imkanları yaradır. Beləliklə, tikinti sektoru işsizlik səviyyəsini azaldır və əhalinin iqtisadi cəhətdən daha yaxşı vəziyyətdə olmasına şərait yaradır. Həmçinin, tikinti layihələrində çalışan insanlar əmək haqqı alaraq həyatlarını daha yaxşı təmin edə bilirlər. Bu, əhalinin ümumi rifahını yaxşılaşdırır [8].

Tikinti sektoru, yeni yaşayış binalarının, infrastrukturun və sosial obyektlərin inşasını təmin edir. Bu inkişaflar əhalinin daha keyfiyyətli və komfortlu yaşayış şəraiti əldə etməsinə səbəb olur. Şəhərsalma və infrastruktur layihələrinin inkişafı insanların həyat keyfiyyətini artırır. Məsələn, yeni yaşayış sahələrinin tikilməsi ilə əhali daha geniş, müasir və komfortlu mənzillərə sahib ola bilir. Eyni zamanda, yeni yollar, məktəblər, xəstəxanalar və

digər ictimai obyektlərin tikilməsi əhalinin gündəlik həyatını asanlaşdırır və yaxşılaşdırır.

Tikinti sektoru ölkə iqtisadiyyatının mühüm tərkib hissəsidir. Bu sektorun inkişafı dövlətə vergi gəlirlərini artırır, bu da sosial xidmətlərin və inkişaf layihələrinin maliyyələşdirilməsinə imkan verir. Tikinti sahəsindəki vergi və digər ödənişlər dövlət büdcəsinə daxil olur və bu vəsait sosial sahələrdə istifadə olunur. Bundan başqa, tikinti sektoru ümumi daxili məhsulun (ÜDM) artmasına səbəb olur ki, bu da ölkə iqtisadiyyatının ümumi inkişafını stimullaşdırır [6].

Tikinti sektoru yalnız iqtisadi cəhətdən deyil, həm də sosial cəhətdən əhəmiyyətlidir. Yeni tikililər və şəhərsalma layihələri, cəmiyyətin sosial strukturlarını dəyişə bilər. Yaxşı planlaşdırılmış tikinti layihələri əhalinin daha yaxşı xidmətlərə və imkanlara çıxışını təmin edir. Eyni zamanda, yeni yaşayış sahələrinin inşası, əhalinin müxtəlif sosial təbəqələri arasında bərabər imkanların yaradılmasına kömək edə bilər. Bu da sosial bərabərliyin inkişafına səbəb olur [7].

Tikinti sektoru, ətraf mühitə də təsir göstərə bilər. Lakin müasir tikinti texnologiyaları və ekoloji dostu yanaşmalar bu təsirləri minimuma endirə bilər. Ekoloji standartlara uyğun tikinti metodlarının tətbiqi ilə ətraf mühitin qorunması mümkündür, bu da insanların sağlamlığına müsbət təsir göstərir. Həmçinin, yenidən qurulm işləri nəticəsində müasir infrastruktur layihələri ətraf mühitə təsir edərək uzun müddət ərzində əhalinin rifahını artırmağa kömək edir [5].

Təsadüfi deyildir ki, tədqiqatçı Ş.K.Dadaşova qeyd edir ki, "*Yenidənqurulma işlərinin mərhələli şəkildə həyata keçirilməsi, tikinti sektorunu canlandırır və əmlak bazarında davamlı inkişafı təmin edir. Yenidənqurulma layihələrinin genişləndirilməsi, bölgənin gələcək inkişafını formalaşdırır və əmlak bazarının uzun müddətli perspektivlərini müəyyənləşdirir. Dövlət tərəfindən təqdim edilən maliyyə dəstəyi və vergi güzəştləri, xüsusilə tikinti sektoruna və yeni iş sahələrinin yaradılmasına yönəlik olaraq, investisiya mühitini yaxşılaşdırır*".

Tədqiqatçılar Ə.M.Əliyev, A.O.Musazadə və İ.O.Qənbərli qeyd edirlər ki, "*Tikinti sənayesi iqtisadi inkişaf üçün strateji əhəmiyyət kəsb edir, çünki o, dövlət büdcəsinin əhəmiyyətli bir hissəsini birbaşa və dolayı yolla yaradır və ölkənin sosial infrastrukturunun inkişafında əsas rol oynayır. Tikinti şirkətlərinin sayının azalması onların fəaliyyətində qarşılaşdıqları çətinliklərlə, yəni mövcud çətinlikləri müstəqil şəkildə həll edə bilməmələri ilə əlaqədardır. Buna görə də, tikinti sektorunda sahibkarlıq fəaliyyətinin mənfi təsirlərini aradan qaldırmaq üçün effektiv innovasiya siyasətinin hazırlanması və həyata keçirilməsi xüsusilə vacibdir. 2022-ci ildə Azərbaycanda tikinti materialları istehsalında artım qeydə alınıb. Bu sektorda ümumi istehsal 2021-ci illə müqayisədə 12,6% artımla 1085,7 milyon manat təşkil edib. Bu, ölkənin tikinti sənayesində aktivliyin artdığını və istehsalın səmərəliliyini artırmaq üçün davamlı səylərin aparıldığını göstərir. Tikinti materialları istehsalının artması həm daxili tələbatın artması, həm də ixracın genişlənməsi ilə əlaqədardır. Daxili tələbatın bu artımının əsas hərəkətverici qüvvələri tikinti sektorunda yeni layihələrin başlanması və mövcud təşəbbüslərin genişləndirilməsidir. Bu, həm yeni yaşayış və kommersiya obyektlərinin tikintisinə, həm də infrastruktur layihələrinə və digər tikinti işlərinə aiddir. İxracın artması, öz növbəsində, xarici bazarlarda Azərbaycan tikinti materiallarına artan tələbat, onların keyfiyyəti, rəqabətli qiymətləri və ixrac əməliyyatları üçün Azərbaycanın əlverişli coğrafi və siyasi mövqeyi ilə əlaqədardır*".

Ölkəmizdə 2000-2023-cü illərdə mənzil tikintisi sektorunun əsas göstəricilərini cədvəl formasında qeyd etməyi daha məqsədəuyğun hesab edirik (Cədvəl 1).

Məlumat üçün bildiririk ki, "Yaşıl iqtisadiyyat" anlayışı ilə yanaşı, iqtisadi ədəbiyyatda "davamlı inkişaf" anlayışı da geniş istifadə olunur. Bu, bu yanaşmalar arasındakı fərqləri müəyyən etməyi zəruri edir. Buna görə də, müqayisəli tədqiqatımız bir neçə əsas məsələni aydınlaşdırmağı hədəfləyir. Birincisi, iqtisadi ədəbiyyatda təqdim olunan "yaşıl iqtisadiyyat" anlayışına müxtəlif yanaşmaların müqayisəli təhlilini təqdim edir. İkincisi, "yaşıl iqtisadiyyat" anlayışı ilə "davamlı inkişaf" anlayışı arasındakı əsas fərqlərin sistemləşdiril-

məsini tələb edir. Bundan əlavə, tədqiqat iqtisadçıların yaşıl iqtisadiyyat və karbon emissiyasının azaldılması, iqlim dəyişikliyi, bərpa olunan enerji mənbələrinin inkişafı, su ehtiyatlarının idarə olunması, tullantıların idarə olunması, torpaqların idarə olunması və tikinti və nəqliyyat sektorlarının inkişafı arasındakı əlaqəyə dair fikirlərinin müqayisəli təhlilini təqdim edir".

**Cədvəl 1.** Azərbaycanda 2000-2023-cü illərdə mənzil tikintisi sektorunun əsas göstəricilərinin dinamikası.

| Sıra sayı | Göstəricilərin adı | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2021 | 2022 | 2023 | 2024 | 2023/ 2000 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Əhali üzrə hər 1000 nəfər üçün istifadəyə verilən mənzil sayı | 0.8 | 1.9 | 2.1 | 1.8 | 5 | 1.7 | 2.5 | 2.1 | 2.8 | 3.5 dəfə |
| 2 | Əhali üzrə hər 1000 nəfər üçün istifadəyə verilən mənzillərin məcmu sahəsi, m² | 61 | 190 | 229 | 203 | 522 | 207 | 279 | 218 | 226 | 3.7 dəfə |

**Mənbə:**Azərbaycanda tikinti. Statitik məcmuə, 2024.
https://www.stat.gov.az/news/index.php?lang=az&id=5987

Məlumat üçün bildiririk ki, "Yaşıl iqtisadiyyat" anlayışı ilə yanaşı, iqtisadi ədəbiyyatda "davamlı inkişaf" anlayışı da geniş istifadə olunur. Bu, bu yanaşmalar arasındakı fərqləri müəyyən etməyi zəruri edir. Buna görə də, müqayisəli tədqiqatımız bir neçə əsas məsələni aydınlaşdırmağı hədəfləyir. Birincisi, iqtisadi ədəbiyyatda təqdim olunan "yaşıl iqtisadiyyat" anlayışına müxtəlif yanaşmaların müqayisəli təhlilini təqdim edir. İkincisi, "yaşıl iqtisadiyyat" anlayışı ilə "davamlı inkişaf" anlayışı arasındakı əsas fərqlərin sistemləşdirilməsini tələb edir. Bundan əlavə, tədqiqat iqtisadçıların yaşıl iqtisadiyyat və karbon emissiyasının azaldılması, iqlim dəyişikliyi, bərpa olunan enerji mənbələrinin inkişafı, su ehtiyatlarının idarə olunması, tullantıların idarə olunması, torpaqların idarə olunması və tikinti və nəqliyyat sektorlarının inkişafı arasındakı əlaqəyə dair fikirlərinin müqayisəli təhlilini təqdim edir".

Tikinti sektoru hər bir ölkənin iqtisadi inkişafında və sosial rifahının təmin edilməsində mühüm rol oynayır. Bu sahə yalnız iqtisadi göstəricilərlə məhdudlaşmır, həm də məşğulluğun artırılması, yaşayış şəraitinin yaxşılaşdırılması, infrastrukturun inkişafı və sosial bərabərliyin təmin olunmasında əhəmiyyətli təsirə malikdir. Məqalədə tikinti sektorunun əhalinin rifahına təsir edən əsas mexanizmləri təhlil olunur, həmçinin sosial, iqtisadi və ekoloji aspektlərdən qiymətləndirmələr aparılır [9].

Əhalinin rifahı dedikdə yalnız gəlir səviyyəsi deyil, həm də yaşayış şəraiti, sosial təminat, sağlamlıq, təhlükəsizlik və ətraf mühit amilləri nəzərdə tutulur. Bu rifahın formalaşmasında əsas rol oynayan sahələrdən biri də tikinti sektorudur. Tikinti sektoru ölkənin ümumi daxili məhsuluna (ÜDM), məşğulluq səviyyəsinə və sosial infrastrukturun inkişafına birbaşa təsir edir [4].

Tikinti sahəsi iqtisadiyyatın lokomotiv sahələrindən biri kimi çıxış edir. Bu sahəyə qoyulan investisiyalar digər sahələrdə də iqtisadi fəallığı stimullaşdırır. Yeni layihələr iş yerlərinin yaranmasına, əməkhaqqı gəlirlərinin artmasına və bu yolla əhalinin istehlak potensialının yüksəlməsinə səbəb olur. "ÜDM-də payı"- Tikinti sektoru bir çox ölkədə ÜDM-in 5-15%-ni təşkil edir. İş yerlərinin yaradılması-Tikinti sektoru xüsusilə qeyri-ixtisaslı və orta ixtisaslı kadrlar üçün geniş məşğulluq imkanları yaradır. Əhalinin rifahını müəyyən edən əsas amillərdən

biri yaşayış sahəsinin əlçatanlığı və keyfiyyətidir.

**Mənzil tikintisi**

Mənzil çatışmazlığının aradan qaldırılmasına kömək edir; Aşağıgəlirli ailələr üçün sosial mənzil layihələri ilə sosial bərabərliyi təşviq edir; Yaşayış şəraitinin yaxşılaşdırılması insanların fiziki və psixoloji sağlamlığına müsbət təsir edir.

Yollar, körpülər, su və elektrik təchizatı kimi infrastruktur layihələri kənd və şəhər yerlərində rifah səviyyəsinin yüksəldilməsində mühüm amildir. Regionlara yönəldilmiş infrastruktur layihələri:

- Kənd yerlərində həyat səviyyəsini artırır;
- Miqrasiyanın qarşısını alır;
- Sosial xidmətlərə çıxışı asanlaşdırır (məktəb, xəstəxana və s.).

Tikinti sektoru cəmiyyətin müxtəlif təbəqələrinin rifahına müxtəlif yollarla təsir göstərir: "Sosial inklüzivlik": Sosial layihələr vasitəsilə aztəminatlı təbəqələrin həyat şəraiti yaxşılaşdırılır. "Gender və əmək hüquqları" :Tikinti sahəsində gender balansı zəif olsa da, son dövrlərdə qadınların bu sektora inteqrasiyası təşviq olunur.

"İctimai təhlükəsizlik": Tikinti sahəsində təhlükəsizlik standartlarının yüksəldilməsi həm işçilərin, həm də cəmiyyətin rifahını təmin edir. Tikinti sahəsinin genişlənməsi ekoloji yük yarada bilər. Bu, uzunmüddətli rifah üçün ciddi risklər doğurur. Bu səbəbdən: "Yaşıl tikinti" və "enerji səmərəli texnologiyalar" təşviq edilməlidir; "Ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ)" layihələrin icrasından əvvəl mütləqdir; "Tullantıların idarə olunması" rifahın davamlılığını təmin edən əsas amillərdəndir [3].

Tikinti sektoru yalnız iqtisadi baxımdan deyil, sosial və ekoloji rifah baxımından da strateji əhəmiyyətə malikdir. Onun effektiv idarə olunması əhalinin yaşayış səviyyəsini yüksəltməklə yanaşı, regional balans, sosial ədalət və dayanıqlı inkişaf üçün də imkanlar yaradır. Aşağıdakı tövsiyələr vacib hesab olunur:

1. Sosial yönümlü tikinti layihələrinin genişləndirilməsi;
2. Tikinti sektorunda şəffaflıq və nəzarət mexanizmlərinin gücləndirilməsi;
3. Yaşıl texnologiyaların tətbiqinin təşviqi;
4. Əmək hüquqlarının qorunması və təhlükəsizlik standartlarının artırılması

Tikinti sektoru hər bir ölkənin sosial-iqtisadi inkişafının aparıcı istiqamətlərindən biri olmaqla, geniş təsir spektrinə malikdir. Bu sahədə həyata keçirilən fəaliyyətlər iqtisadi artıma təkan verir, yeni iş yerləri yaradır, yaşayış şəraitini yaxşılaşdırır və regionlar arasında bərabərliyi təşviq edir. Əhalinin rifahı anlayışı təkcə gəlir səviyyəsi ilə deyil, həm də mənzil şəraiti, sosial xidmətlərə çıxış, infrastruktur və ekoloji təhlükəsizliklə ölçülür. Bu baxımdan tikinti sektoru rifahın formalaşmasında strateji əhəmiyyət daşıyır [2].

Beynəlxalq tədqiqatlar tikinti sektorunun sosial rifahla sıx əlaqədə olduğunu göstərir. Dünya Bankının (2022) hesabatına əsasən, tikinti və infrastruktur investisiyaları yoxsulluğun azaldılması və iqtisadi inklüzivliyin artırılmasında əsas amillərdəndir. OECD (2021) isə bu sektoru regionlararası fərqlərin azaldılması baxımından əsas mexanizm kimi qiymətləndirir. UN-Habitat (2020) yaşıl və davamlı tikinti yanaşmalarının əhəmiyyətinə xüsusi diqqət yetirir.

Tikinti sektoru bir çox inkişaf etməkdə olan ölkələrdə ÜDM-in 8-12%-ni təşkil edir. Sektor xüsusilə:

- Qeyri-ixtisaslı və orta ixtisaslı işçilər üçün məşğulluq imkanları yaradır;
- Əmək bazarını canlandırır və gəlirlərin artımına səbəb olur;
- Müxtəlif sahələr (nəqliyyat, istehsalat, xidmət) üzrə iqtisadi əlaqələri stimullaşdırır.

Rifahın əsas göstəricilərindən biri keyfiyyətli və əlçatan mənzildir. Tikinti sektorunda həyata keçirilən yaşayış layihələri əhalinin həyat səviyyəsinin yüksəlməsinə şərait yaradır [1].

- Aztəminatlı ailələr üçün sosial mənzillərin inşası bərabərliyi gücləndirir;
- Köhnə və yararsız yaşayış binalarının yenilənməsi əhalinin sağlamlığına və təhlükəsizliyinə müsbət təsir edir.

Tikinti sektoru vasitəsilə yollar, məktəblər, xəstəxanalar və digər ictimai obyektlər inşa olunaraq regionların inkişafı təmin edilir.

- Kənd və rayonlarda rifah səviyyəsi yüksəlir;
- Şəhər və kənd yerləri arasında fərqlər azalır;
- Sosial xidmətlərə çıxış genişlənir.

Tikinti fəaliyyəti eyni zamanda ətraf mühitə təsir edir. Əgər bu proses davamlılıq prinsiplərinə əsaslanmırsa, uzunmüddətli rifah üçün risklər yarana bilər.

- Ekoloji standartlara uyğun tikinti texnologiyalarının tətbiqi vacibdir;
- Enerji səmərəli və "yaşıl" binalar rifahın davamlı inkişafına töhfə verir;
- Tikinti tullantılarının düzgün idarə olunması ekoloji təhlükəsizliyi artırır.

**Nəticə**

Tikinti sektoru əhalinin rifahına çoxşaxəli təsir göstərən strateji sahədir. O, iqtisadi artımı və sosial inkişafı stimullaşdırmaqla yanaşı, regionlararası balansı və sosial ədaləti təşviq edir. Lakin bu təsirin davamlı və balanslı olması üçün siyasət və planlaşdırma səviyyəsində müvafiq addımlar atılmalıdır.

1. Sosial mənzil proqramlarının genişləndirilməsi;
2. Regionlarda infrastruktur layihələrinə prioritet verilməsi;
3. Tikintidə ekoloji standartların tətbiqi və "yaşıl" texnologiyaların təşviqi;
4. Əmək hüquqlarının və işçi təhlükəsizliyinin təmin olunması;
5. Tikinti sektorunda şəffaflıq və effektiv idarəetmənin gücləndirilməsi.

Ümumiyyətlə, tikinti sektoru əhalinin rifahına bir çox cəhətdən təsir edir. Bu sektorun inkişafı işsizlik səviyyəsinin azalmasına, yaşayış şəraitinin yaxşılaşmasına, dövlət gəlirlərinin artmasına və iqtisadi inkişafın sürətlənməsinə səbəb olur. Eyni zamanda, şəhərsalma və ekoloji yanaşmalar sayəsində əhalinin həyat keyfiyyəti də yüksəlir. Tikinti sektoru iqtisadi və sosial baxımdan əhəmiyyətli bir sahə olaraq, əhalinin rifahının artmasında mühüm rol oynayır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Həsənov İ. Tikinti sektorunun iqtisadiyyat və əhalinin rifahına təsiri. İqtisadiyyat və İnkişaf Jurnalı, 2023;2(45):112–118.
2. Məmmədov R. Şəhərsalma və sosial inkişaf: Tikinti sektorunun sosial rifaha təsiri. Azərbaycan Şəhərsalma və Tikinti Jurnalı, 2022;1(35): 43–49.
3. Əliyev V. Tikinti sahəsinin iqtisadi inkişafa təsiri və sosial rifah: nəzəri və praktik yanaşmalar. İqtisadi Araşdırmalar və İnkişaf, 2021;3(28): 95–102.
4. Kərimov A. Tikinti sektoru və işsizlik: Tikintinin sosial və iqtisadi təsirləri. Azərbaycan İqtisadiyyatı və Sosial Siyasət, 2020;4(22):77–83.
5. Babayev M. Tikinti sektorunun iqtisadi artım və əhalinin rifahına təsiri: Azərbaycan nümunəsi. İqtisadi İslahatlar və Tədqiqatlar Jurnalı, 2019;2(17):58–64.
6. Rüstəmov T. Tikinti sektoru və sosial xidmətlər: Əhalinin rifahının yüksəlməsi. Azərbaycanın İnkişafı və Sosial Tədqiqatlar, 2021;5(31):123–129.
7. Quliyev F. Tikinti sektoru və sosial infrastruktur: Yaşayış şəraitinin yaxşılaşdırılması. Urbanizasiya və İqtisadiyyat Jurnalı, 2022;6(40): 85–90.
8. Musayev X. Tikinti sektorunda iqtisadi artım: analitik yanaşma.-Azərbaycan Turizm və Menecment Universitetində “Müasir dövrdə effektiv idarəetmənin problemləri” mövzusunda IX Respublika elmi-praktik konfransı, 29 noyabr 2024.
9. Musayev Kh. Evaluation of the impact of the Development of the construction area on economic growth. V İnternational Scientific and Practical Conference diversity and inclusion in Scientific area. Poland.26-28 October 2024, p.20–24.
10. https://e-qanun.az/framework/13727

**Khazar Akif MUSAYEV**
Ph.D. student at Azerbaijan Tourism and Management University

## IMPACT OF CONSTRUCTION SECTOR DEVELOPMENT ON POPULATION WELFARE

**Summary**

In modern times, the role of the construction sector in improving the living conditions of the population is irreplaceable. The construction sector is not only an important driving force of economic growth, but also one of the main factors in improving the level of well-being of the population. This article analyzes the impact of the construction sector on well-being from various aspects - economic, social and environmental. The role of the construction sector in areas such as increasing employment levels, improving housing conditions, and developing regional infrastructure is examined. At the same time, the importance of a sustainable and environmentally responsible construction policy is noted and suggestions and recommendations are put forward.

**Keywords:** construction sector, well-being of the population, housing, employment, infrastructure, sustainable development.

**Хазар Акиф МУСАЕВ**
Докторант, Азербайджанский Университет Туризма и Менеджмента

## ВЛИЯНИЕ РАЗВИТИЯ СТРОИТЕЛЬНОГО СЕКТОРА НА БЛАГОСОСТОЯНИЕ НАСЕЛЕНИЯ

**Резюме**

В настоящее время роль строительного сектора в улучшении условий жизни населения незаменима. Строительный сектор является не только важной движущей силой экономического роста, но и одним из основных факторов повышения уровня благосостояния населения. В данной статье анализируется влияние строительного сектора на благосостояние с различных аспектов – экономического, социального и экологического. Рассматривается роль строительного сектора в таких областях, как повышение уровня занятости, улучшение жилищных условий и развитие региональной инфраструктуры. Отмечается важность устойчивой и экологически ответственной строительной политики, а также предлагаются предложения и рекомендации.

**Ключевые слова:** строительный сектор, благосостояние населения, жилье, занятость, инфраструктура, устойчивое развитие.

**Daxil olub:** 02.03.2026